# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## «Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən tikinti sahəsində dövlət nəzarətinin mərhələlərlə həyata keçirilməsi Qaydaları»nın təsdiq edilməsi barədə» Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 dekabr tarixli 105 nömrəli qərarına əlavə edilməsi barədə

«Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyul tarixli 136 nömrəli qərarının 3-cü bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 dekabr tarixli 105 nömrəli qərarı ilə təsdiq edilmiş «Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən tikinti sahəsində dövlət nəzarətinin mərhələlərlə həyata keçirilməsi Qaydaları»nın 3.6.1-ci bəndinə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

«yaşayış binaları, o cümlədən mənzillər yalnız elektrik, qaz və su xətlərinə tam həcmdə qoşulduqdan və sayğaclarla təchiz edildikdən sonra istismara qəbul üçün Dövlət Qəbul Komissiyasına təqdim edilə bilərlər;».

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri**: **Ə.Baxşıyev**

21 iyul 2010-cu il

№ 72